# İtaliya Azərbaycandan yaşıl enerjinin idxalına maraq göstərir

Energetika naziri Pərviz Şahbazov Milanda İtaliyanın ətraf mühit və enerji təhlükəsizliyi naziri Cilberto Piketto Fratini ilə görüşüb.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə enerji sahəsində və Azərbaycanın COP29-a, İtaliyanın G7-yə sədrliyi çərçivəsində əməkdaşlığın geniş spektri müzakirə olunub.

Azərbaycanla İtaliya arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə olmasından və əməkdaşlıq əlaqələrinin inkişafından məmnunluq ifadə edilib. Azərbaycan Prezidenti İlham Əliyevin İtaliya ilə münasibətlərin hərtərəfli inkişafına önəm verdiyi vurğulanıb. İtaliyanın Azərbaycanın əsas ticarət tərəfdaşı olması, indiyə kimi Avropaya tədarük edilmiş 37,9 milyard kubmetr qazın 30 milyard kubmetrdən çoxunun bu ölkəyə nəqli və İtaliyanın qazla təchizatında Azərbaycanın ilk üçlükdə qərarlaşması müsbət məqamlar kimi qeyd olunub. Bu il İtaliyaya qaz tədarükünün 9,6 milyard kubmetr proqnozlaşdırıldığı, TAP-ın 2026-cı ildən ötürücülük gücünün 1,2 milyard kubmetr genişlənməsinin isə enerji təhlükəsizliyi və dekarbonizasiya məsələlərində əməkdaşlığımızı gücləndirəcəyi bildirilib.

Görüşdə "Ansaldo Energia" şirkəti ilə hazırda inşa olunan 1280 meqavatlıq elektrik stansiyasının və azad edilmiş ərazilərdə yarımstansiyaların avadanlıqlarla təchizatı üzrə əməkdaşlıqdan da bəhs olunub və bərpaolunan enerjinin tədarükü perspektivləri dəyərləndirilib. İtaliyanın "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" vasitəsilə Azərbaycandan yaşıl enerjinin idxal olunmasına marağı ifadə edilib.

**AZƏRTAC**
**2024, 2 iyul**